# Vətən ağrısı



■ Mərziyyə Nəcəfova
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

Tanınmış şairə, nasir, ədəbiyyatşünas Bahar Bərdəli 80-cı illər ədəbi nəslinə mənsubdur.Onun əsərləri bu dövrdə "Azərbaycan müəllimi", "Azərbaycan gəncləri", "Ədəbiyyat və İncəsənət" qəzetlərində və "Azərbaycan qadını", "Azərbaycan", "Ulduz", "Kənd həyatı" jurnallarında vaxtaşırı çap olunmuşdur.

B.Bərdəlinin şeirləri Vətənpərvərlik duyğuları ilə zənginləşmiş, süslənmiş poetik parçalardır. Onun yaradıcılığında müstəqillik dövrünün bərpasına, şəhidlərə, şəhid analarına həsr etdiyi şeirləri xüsusi ilə diqqəti çəkir."Şəhidlər xiyabanı", "Yurdum mənim", "Vətən bayatıları", "Görərsən", "Vətən", "Heykəl analar", "Prometey odu" kimi poeziya nümunələri bu qəbildəndir.

Şəhidlər Xiyabanı -hər gün xalqın üz tutduğu müqəddəs məkan, 20 yanvar gecəsinin əks-sədası, müstəqilliyimizə gedən yolda verdiyimiz ilk və böyük qurbanların uyuduğu torpaq, Bakının gül-çiçəyə bələnmiş bir guşəsidir. Bu guşə yəhər saat, hər dəqiqə əlində çiçək, dilində bayatı, qəlbində ağrı-acı, nisgil, dərdlə gələn onlarca ana, bacı, qız, gəlin, uşaq, qoca var.

Şairin sənətkarlığı ondadır ki, bu ağrı-acıları ürək yanğısı ilə ümumiləşdirərək poetikləşdirir və bütün dərdlərin fövqünə qaldırır. Çünki bu acılar tək-tək fərdlərin, ayrı-ayrı şəxslərin deyil, ümumən Vətənin yaralarıdır, Vətənin ağrılarıdır. Vətənəatılan güllələr bu şəhidlərdən keçib torpağa sancılıb. Onların qanı ilə suvarılan məkanı əbədi məşəl qızdırır, gül-çiçəklər bəzəyir:

*Bu yerdə əbədi bir məşəl yanır,*
*Şənbə gecəsinin dərd-möhnətindən,*
*Bu yerdə boy atıb güllər boylanır,*
*İgid oğulların məhəbbətindən*

Şair şəhid məzarlarını anaların diliylə oxşayır:

*... Üzüm üstə....*
*Saxlaram üzüm üstə,*
*Sən gəzdiyin yerləri,*
*Gəzəydim üzüm üstə!*

Amma bir iş də var ki, analar çox dözümlüdür, məğrurdur, qürurludur, qətiyyətlidir, heç də ağlamır, sızlamır. Çünki:

*Bir oğul itirib, dünya qazanıb,*
*Oğul böyütmüşdü elə Vətənçün.*
*Yox, ana ağlamır, məğrur dayanıb,*
*Bayatı gətirib, dinlə, Vətənçün:*

*...Ötəndi,*
*Dərd də, qəm də ötəndi.*
*Hər şey keçib gedəcək,*
*Bir əbədi Vətəndi!*

Bahar xanımın şeirlərində əbədi Vətənçün canından, qanından keçənlər də əbədiləşir, Vətənləşir!

Müəllifin "Vətən bayatıları"da çox orijinaldır, yeni bədii ifadə vasitələrilə zəngindir. Hər bir bayatı öz fikir yükünün ağırlığı ilə seçilir, fərqlənir:

*.... o dağdı,*
*O dərədi, o dağdı...*
*Bölünmüş bu Vətənin*
*Hər tikəsi bir dağdır!*

Və ya

*Ö üzündə....*
*O qaşında, ö üzündə,*
*Vətən yenə bölünüb!*
*Yağı gəzər o üzündə!*

Şair, publisist Əli Rza Xələfli Bahar Bərdəlinin haqqında yazdığı "Ağrıları yaşadan poeziya" adlı məqaləsində göstərir ki, "onun yaradıcılığında həmişə nəbz döyüntüsü kimi çırpınan bir ağrı duyulur. Bu ağrını o qədər qabarıq, aydın və bir qədər də kövrək təqdim edir ki, hər hansı oxucu ilə ünsiyyətdə olanda ağrıdan ona da pay düşür. Bəlkə də sənətin missiyası elə budur?"

Bu bir həqiqətdir ki, Bahar Vətənin ağrılarını özününküləşdirərək öz ağrısı kimi təqdim edir; bu ağrını Vətənlə birgə şair də yaşayır və yaşadır:

*Vətən, sinən üstə sənin,*
*Ellər at oynatdı, getdi...*
*Mərdin qurban getdi sənə*
*Namərd səni satdı, getdi.*

Onun şeirlərinin baş qəhrəmanı Vətən və anadır. Əsas sevgisi Vətən sevgisi, ana məhəbbətidir. Təsvir etdiyi torpaqların ən müqəddəsi Vətən torpağıdır. Yol üstündə əllərində məşəl daşa dönmüş ana heykəlləri də analar qədər əzizdir, doğmadır:



*Artıq şam ömrünü vurmusuz başa,*
*Bir oğul harayı dillərinizdə.*
*Əriyə-əriyə dönmüsüz daşa,*
*Ümid məşəl olub əllərimizd.*

*Donub gözünüzdə müqəddəs kədər,*
*Yenə oğullarasız dayaqsınız!*
*Uyuyur torpaqda oğul, uşaq, ər,*
*Sülhün keşiyində siz oyaqsınız!*

Həmişə "oyaq", "ayaqüstə", əlində məşəl tutub Vətənin, sülhün keşiyində dayanmış ana heykəlindən şair bir ədəbi peyzaj yaradıb.

Bahar Bərdəlinin poeziyasında Qarabağ dərdi, Qarabağ problemi də mühüm yer tutur. Vətənin bir yarası da Qarabağ yarasıdır. Erməni vəhşilərinin ayağı altında inləyən, boynu bükük bənövşəyə, buz içində şüşəyə; bağrı qana-gülöyşəyə dönən Qarabağı xilas etmək üçün şair üzünü Vətən övladlarına, igidlərə tutur:

*Şirin nəğmə, həzin ağı,*
*Ürəyində təklik dağı,*
*Sinəsinəçöküb yağı,*
*Bizi gözlər, ərənlərim!*

*O Vətəndir talan olan,*
*O düşməndir toyun çalan,*
*Dizin döyüb saçın yolan,*
*Bizi gözlər, ərənlərim!*

B.Bərdəlinin bu mövzuda yazdığı "Qarabağım", "Yurdum mənim", "Bərdəm mənim" kimi şeirləri Vətənin ağrılarını əks etdirən poetik nümunələridir. Bu "...ağrılar çox realdır, inandırıcıdır və müəllif özü də həm məkanın, həm də zamanın iştirakçısı kimi görünür. Bir neçə obrazın, həm də danışan, dilləşən, hisslərini, həyəcanlarını bölüşən obrazın iştirakı ilə yaranan bir lövhə bütöv Vətən haqqında, Vətən yarası haqqında dolğun təsəvvür yarada bilər" - Bu fikirlər də Əli Rza Xələfliyə məxsusdur və həqiqətləri əks etdirir. Çünki "90-cı illərin ağrılı, ziddiyyətli hadisələri - istər 20 yanvar, istər Xocalı faciələri Bahar xanımın gözü qarşısında baş verib. Həssas şair qəlbi şair ürəyi bu hadisələrə təbii ki, biganə qala bilməzdi; onu ədəbiyyata gətirməliydi və gətirdi də:

*....Didəm oldu,*
*Vətən didəm-didəm oldu.*
*Ürək dözdü hər əzaba,*
*Qan ağlayan didəm oldu!*

Bahar Bərdəlinin müharibə mövzusunda yazdığı "Prometey odu" adlı bir şeiri də var. Əfsanəyə görə Prometey adlı mistik qəhrəman odu allahlardan oğurlayıb insanlara gətirmişdi. Vəhşi təbiətin qoynunda yaşayan çılpaq insanlarüçün od çox əhəmiyyətliydi. Heyvanlardan qorunmaq, qarda-boranda qızınmaq, yeməyi bişirmək, bir sözlə, insan kimi yaşamaq, özünü qorumaq üçün od, doğrudan da, müqəddəs nemət idi. Odu oğurlayıb insanlara verdiyinə görə Prometeyi dara çəkirlər. Amma o, insanları qoruduğu, yaşatdığı üçün təəssüf etmir.

*Fəqət indi görsəydi*
*bu alovu, odu,*
*yanan insanları,*
*Eşitsəydi bu naləni,*
*fəryadı,*
*Həyatı bahasına etdiyi*
*yaxşılığı,*
*insanlara bağışlamazdı... -*

deyir şair. Artıq od insanları qorumaqdan daha çox onların məhvinə yönəlib. Müharibələrdə yanan şəhərləri, kəndləri, meşələri, insanları görəndə bunu düşünürsən. Çox maraqlıdır ki, Əli Rza Xələfli həmkarının daşlaşmış ağrılarını "Ağrı abidəsi" adlandırır. "Ağrını qavrayan, ağrını özünə çəkə bilən sənətkar nəticədə sənət özü bütövlükdə zaman, dövr haqqında daşlaşmış bir abidə təsiri bağışlayır. Bu abidənin adını elə belecə də ifadə etmək olar: Ağrı abidəsi!" -

Dəqiq qiymətləndirmədir, - desək, yanılmarıq. Onu da əlavə edək ki, bu ağrı həm də poetikləşmiş bir ağrı abidəsidir.

*Yenə dar günündür, Vətənim mənim,*
*Gözəllərin başı qovğalı olur...*
*Yuxuya dönəcək bir vaxt bu günün,*
*Bilirəm gözlərin boşalıb... dolur.*

*Darıxma, gələcək büsatın sənin,*
*O Cıdır düzündə el şənlənəcək!*
*Düşmənə od qoyan vüsalın sənin,*
*Hicranı qovacaq son mənzilədək!*

"Baharın yaradıcılığı həm də təmsil etdiyi bir xalqın, millətin ağır taleyini, dərd yükünü, dövrümüzün hələ də qanı axan yaralarını özündə ehtiva edərək sabaha daşıyan bir salnamədir. Şair üçün Vətən anlayışı nəfəs alan məkan və insanın vəhdətidir. Bu şeirlərdə Vətən həm insaniləşdirilir, həm də dünyəviləşdirilir, ilahiləşdirilir. Hər şeyin fövqünə qaldırılır. "Sənə Vətən deyirəm, Dünyamla tən deyirəm!" - Şairin hər misrasında öz dünyasınında Vətən üstündə kökləndiyini görməmək ədalətsizlik olardı".

Böyük Vətənimizin bir parçası, dilbər guşəsi olan, şairin doğulduğu Bərdə torpağı haqqında da poetik düşüncələri diqqətdən qaçmır. Onun tarixi, bu günü, sabahı ilə bağlı bir övlad sevgisi ilə söhbət açır:

*Əsrlərin daş yaddaşı,*
*Tarixlərin qəm sirdaşı,*
*Karvanların köç yurddaşı,*
*Qədim Bərdə, yurdum mənim!*
*Ulu diyar, Bərdəm mənim!*

Şair Ulu, qədim şəhərin tarixini vərəqləyir, məşhur sələflərini dilə gətirir, daha sonra üzünü sabahki qəhrəman oğullara -xələflərə tutur:

*Ağılda Nüşabə, sevgidə Şirin,*
*Əməli yaşasın qoy Cavanşirin,*
*İgid, mətin olsun, həm də ki şirin,*
*Obası Bərdənin, eli Bərdənin.*

Bahar Bərdəlinin Vətən ağrısında Cənubi Azərbaycan - Təbriz, Ərdəbil yanğısı da yer alıb. "Durul, Arazım, durul", "Araza", "Araz üstü bayatılar" kimi şeirlərində də dərd poetikləşdirilir:

*Qaşla gözün arasından,*
*Keçdin, qıvrıla-qıvrıla*
*Axdı sənə göz yaşları,*
*İçdin, qıvrıla-qıvrıla....*

*Kəsdinmi əhdi-peymanı,*
*Unutdunmu qəlb dünyanı?*
*Özgəsi əkdi hicranı,*
*Biçdin, qıvrıla-qıvrıla...*

Bahar Bərdəli həm də ədəbiyyatşünasdır. Fəlsəfə doktorudur. Maraqlı bir nüans da var ki, Bahar xanım tədqiq etdiyi, araşdırdığı əsərlər də Vətənin ağrısına, acısına həsr edilmiş əsərlərdir. İstər doktorluq işi olan "Balaş Azəroğlunun yaradıcılığı", istərsə də Qabilin, Söhrab Tahirin, N.Günün poeziyası bu dərdlərdən xali deyil. Həmçinin Vətənpərvərlik, insanpərvərlik, yurdsevərlik də şairin yaradıcılığının ruhudur, canıdır, mayasıdır.

Bütünvbunlara rəğmən, onu da vurğulamaq yerinə düşər ki, B.Bərdəlinin poeziyasında bir nikbinlik notları da var. Şairin ümidi, inamı da böyükdür. Bütün yağı düşmənlər mütləq basılacaq, intizara, ağrı-acıya son qoyulacaq, Vətənin müqəddəs parçaları azad ediləcək! O gün uzaqda deyil!